Xalq qəzeti.- 2025.- 14 oktyabr (№220).- S.





# "Aç qoynunu, anam, gəldim"

**Tanınmış şair Əlisəmid Kür (Cəfərli) də ömrünün 71-ci ilində işıqlı dünyaya əlvida deyib getdi.**

Bir aya yaxın idi ki, media və sosial şəbəkələrdə onun səhhətində problem yarandığı üçün Respublika Klinik Xəstəxanasında müalicəyə götürüldüyü ilə bağlı məlumatlar verilirdi. Dünən səhər isə eşitdik ki, şair dünyasını dəyişib.

Elə dünən "Facebook"da Ülviyyə Heydərovanın belə bir qeydini oxuduq ki, şairin oğlu – aktyor Qorqud Cəfər onun şeirlərini öz ifasında çəkib və "YouTube" kanalında yerləşdirib. Ardınca müəllif Allahdan şairə sağlıq diləyirdi: "Əlisəmid müəllim, Bakının küləkli küçələri sizin üçün darıxır...". Bir də şərh bölümündə Əlisəmid Kürün məşhur bir misrasını xatırlatmışdıq:

**İçərişəhərdən keçən küləyə**
**Yüyürdüm, yüyürdüm, çata bilmədim...**

Bu gün isə səhəri bəd xəbərlə açdıq. Poeziyamızda onun adı ilə coşğun bir Kür öz axınını dayandırdı. Sən demə, "Gecələr qanadını qanadına vurub uçurdu ucalığa"... Beləcə, Tanrı dərgahına yetişdi Əlisəmid Kür.

İstedadlı qələm dostumuzun "Xoşqədəmli" adlı ilk şeiri 46 il əvvəl "Azərbaycan gəncləri" qəzetində çap olunub. Sonra adına, imzasına layiq yazıları ilə özünün "Uğurlu yol"unu özü yazıb. Hələ heç bir kitabı çıxmamış, istedadının etirafı olaraq, Yazıçılar İttifaqına üzv qəbul edilib. "Rəngli kölgələr" (1989), "Əlisəmid və qırx tanış üz" (1991), "Kentavr" (1995), "Çaylar məcrasından çıxanda" (2004), "Tənha kentavr" (2024) kitabları ilə ard-arda ədəbi tənqidin, necə deyərlər, zəndini doğruldub. Onun mətbuatda çıxan hər şeiri, nəşriyyatlarda çap olunan hər kitabı ədəbi cameəyə səs salır, poetik duyğu və düşüncələri dillərdə gəzirdi. Şeirləri dünyanın müxtəlif dillərinə tərcümə olunmuşdu, xarici almanaxlarda, ədəbi dərgilərdə dərc edilirdi. 20 il ərzində dünyanın bir çox şəhərlərində keçirilən şeir toplantılarında Əlisəmid Kür Azərbaycanı layiqincə təmsil edib.

**Əqrəbləri itmiş saat kimiyəm,**
**Vaxt ölür, çökür içimdə.**
**Cin çapmış at kimiyəm,**
**Qan-tər içindəyəm, anam,**
**Qan-tər içində.**
**Ürəyim əlimdən gedir,**
**Çırpınır qollarım qoynumda...**

Əlisəmid Kür 1954-cü ildə Salyan şəhərində müəllim ailəsində doğulub. Orada 3 saylı orta məktəbi fərqlənmə attestatı ilə, sonra isə İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirib.



Dövlət Teleradio Verilişləri Komitəsində, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında, Teatr Muzeyində, Dövlət Tərcümə Mərkəzində müxtəlif vəzifələrdə çalışıb. 1991–1994-cü illərdə "Yol" bədii-publisistik qəzetinin baş redaktoru olub. Son dövrlərə qədər Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin "Xəzər" dünya ədəbiyyatı dərgisinin məsul katibi idi.

Şair təpədən-dırnağa milli ruh daşıyıcısı idi. Deyirdi: "Xoşbəxtəm ki, əsgərlərimiz Şuşaya girəndə mənim şeirimi səsləndiriblər. Araz Elsəs şeirimə mahnı bəstələyib, bax, onu oxuyublar. Həm də ona görə xoşbəxtəm ki, bu şeiri hər dəfə Təbrizin "Traktorsazi" stadionunda on minlərlə soydaşımız coşqu ilə səsləndirir".

O, siyasətdən uzaq adam idi. Amma bəzən könlünü güldürən hadisələrə bir şair kimi biganə qala bilmirdi. Məsələn, Azərbaycanın 44 günlük "Zəfər yürüşü" münasibətilə belə misralar yazdı:

**Mən burdayam, gəlmişəm! –**
**Belə demişdi Əmir Teymur,**
**Firdovsinin məzarı başında.**
**Belə dedi Ali Baş Komandan,**
**Dağıdılmış Ağdam məscidinin qarşısında –**
**Mən burdayam, gəlmişəm!..**

Əlisəmid Kür dünən Salyanda torpağa tapşırılıb. Onun illər öncə Təbrizdə bir kitabı nəşr edilmişdi – "Sonuncu dua". Düşünürük ki, şeirlərinin birində "Hamı iftar açır günah içində" misrasının da yer aldığı şairin dəfn günü məzarı başında səslənən dualar sonuncu olmayacaq. Dostları, yaxınları, oxucuları onun ruhuna daim dualar oxuyacaqlar...

Artıq haqq dünyasında mərhum anasının ruhunu qucaqlayan Əlisəmid Kür daha kürlük eləmir. Sadəcə deyir:

**Aç qoynunu, ana!**
**Qol-boyun gördükcə bizi**
**Dostlar da başlayar**
**Bir-birini qucaqlamağa.**

***Əli NƏCƏFXANLI***
***XQ***